# İbrahim Yusifoğlu yaradıcılığında Şəhidlik mövzusu və Şəhid obrazı

**Şəhidlik mövzusu, şəhadət, şəhid obrazı istər elmi, istər bədii, istərsə də dini ədəbiyyatların ayrılmaz tərkibinə çevrilərək, şəhidlik zirvəsinə ucalanların xatirəsini yaşatmaqdadır. İbrahim Yusifoğlu da səlefləri kimi yaradıcılığında Vətəninin suverenliyi və ərazi bütövlüyünün təmin edilməsi üçün şücaətlər göstərmiş, Vətən üçün vuruşaraq, yüksək amal, məslək, əqidə, uğrunda canlarından keçmiş insanların kamil obrazını, onların şəhadətini əks etdirməyə nail ola bilmişdir:**

*Torpağı uğrunda şəhid olanlar*
*Yaşayır göylərin yeddi qatında!*

İbrahim Yusifoğlu xalqın mənsub olduğu taleyinə və milli-mənəvi dəyərlərinə işıq salaraq, real həyat faktlarından və şəhidlik ağrısını öz talelərində yaşamış insanların xatirələrini, təəssüratlarını ədəbi yaradıcılığında ifadə etməyə nail olmuş, şəhidlərimizin tanıdılması sayəsində mükəmməl bədii və publisistik yazılar qələmə almışdır. İbrahim Yusifoğlunun şəhidlik mövzusu ilə bağlı qələmə aldığı bədii və publisistik əsərləri milli şüurumuz və azadlıq düşüncələrimizdə milli yaddaşın unudulmamasına çağırış kimi dəyərləndirmək lazımdır. Bu çağırış şəhidliyin məhz bütöv Azərbaycan anlayışının dərkinin tarixi inkişaf yolu keçmiş prosesinin dərk edilməsinə yardım edir.

19 yanvar 1990-cı ildə Sədərək otrafında vətənin torpaqlarını qoruyaraq şəhid olmuş Azərbaycanın Milli Qəhrəmanı, polis kapitanı Məhərrəm Mirəziz oğlu Seyidovun simasında Vətən torpağı uğrunda canını fəda edənlərin tarixi qəhrəmanlarla bir sırada dayanmasının tərənnüm edilməsi maraq kəsb edir:

*Mən də, bax, burada sizdən aralı,*
*İşıqlı ulduzlar arasındayam!*
*Vətəni sarıdan qəlbi yaralı,*
*Babək, Cavanşirlər arasındayam.*

Müəllifin poetik nümunəsində Cavanşir, Babək kimi tarixi şəxsiyyətlərin yadelli işğalçılara qarşı mübarizəsini şərəfli, şanlı tariximiz kimi dəyərləndirilməsi, dövrümüzün qəhrəmanlıq tarixini ölümləri ilə ölümsüzlüyə qovuşmuş şəhidlərimiz tərənnüm edilmişdir.

İbrahim Yusifoğlu "Ölümü Tanrı göndərəndə" publisist yazısında şəhidlərin əbədiyaşar olmalarını maraqlı bədii priyomla təqdim etməyə nail olmuşdur. Müəllif şəhid Əhəd Nəriman oğlu Seyidova həsr etdiyi yazısında şəhidlərin əbədi qəlblərimizdə yaşamasını onların ölməzliyilə əlaqələndirməsini aşağıdakı epizodda şəhidin öz dili ilə təsvir etmişdir: "...Mən şəhidəm! Şəhidlər ölmür! Onlar həmişə yaşayırlar... biz heç də məzarda deyilik. Bizim ruhumuz daim Vətən göylərindədir! Biz həmişə Azərbaycan Respublikasının ərazi bütövlüyünü qoruyuruq və qoruyacağıq! Biz şəhidik! Biz ölmürük! Biz şəhidik!!!"

**İbrahim Yusifoğlu Vətən oğullarının şəhadət səbəblərinə aydınlıq gətirmək üçün oxucusuna ünvanladığı sualla qabartmağa nail olduğu problemə diqqəti yönəldə bilir: "Dağ üzqarlı, el qeyrətli, torpaqcanlı igidlərimiz sinələrini düşmən gülləsinə sipər ediblər, Vətən yolunda şəhid olublar?!"**

Müəllif şəhidlərimizin fəxarət doğuracaq əməllərinin nəticəsi olaraq şəhadətə ucala bilmələrini poetik nümunə ilə çatdırmağa nail olur:

*Düşmənə vəlvələ saldı igidlər,*
*El-oba naminə qeyrətləriylə,*
*Şəhidlik adını aldı igidlər.*

Şəhidlərin adının əbədiləşdirilməsi məqamı da İbrahim Yusifoğlu tərəfindən vurğulanmışdır. Azərbaycanın Milli Qəhrəmanı, polis kapitanı Məhərrəm Mirəziz oğlu Seyidova həsr etdiyi "Kapitan Seyidov küçəsindəyəm..." şeirində biz Milli qəhrəmanın adının əbədiləşdirilməsi üçün Şərur şəhərinin küçələrinin birinə verilməsində özünü göstərmişdir:

*Kapitan Seyidov küçəsindəyəm,*
*Ulduzlar səmada alışıb yanır.*
*Onunla görüşmək həvəsindəyəm,*
*Osa gələməyəcək, qəlbim odlanır.*

Azərbaycanın Milli qəhrəmanı Kərim Məmməd oğlu Kərimovun xatirəsinə həsr edilmiş "Yarımçıq ömrün son akkordu: Milli qəhrəman" başlıqlı yazıda müəllifin qəhrəmanın təhsil aldığı məktəbin önündə büstünün qoyulmasının təsvirində bunun şahidi oluruq: "Kəndin mərkəzindəki orta məktəb binasının qarşısında gül-çiçəyə qərq olmuş Azərbaycanın milli Qəhrəmanı Kərim Kərimovun büstü önündə dayanıb qərənfil güllərini onun mozarı üzərinə düzdük". Şərur şəhərindəki küçələrdən birinə, Arpaçayın üzərində salınmış körpülərdən birinə, 8 il təhsil aldığı Qarahəsənli kənd orta məktəbə Azərbaycanın Milli qəhrəmanı Kərim Kərimovun adının verilməsi vətən qarşısında xidmətləri olmuş qəhrəmanların unudulmamasını bir daha təsdiq edir.

Sədi Sabir oğlu Əsgərovun xatirəsinə həsr edilmiş "Şəhidlik zirvədi, zirvədi, Sədi!" başlıqlı yazıda 1992-ci ildə erməni quldurlarına qarşı mübarizə apararaq həlak olmuş Sədi Əsgərovun məktəb həyətində dəfn edilməsi faktının təsvirində şəhidə verilən qiymətin şahidinə çevrilirik: "erməni quldur basqınlarından müqəddəs torpaqlarımızı qoruyarkən şəhid olmuş Sədi Sabir oğlu Əsgərov doğma məktəbinin həyətindəki ağacların arasında canı qədər sevdiyi torpağa tapşırıldı".

**Nüsrət Hidayət oğlu İsmayılova həsr edilmiş "Şəhidlik zirvəsinə yüksələn igid" başlıqlı publisisitik yazıda Şuşanın Kərkicahan qəsəbəsi uğrunda gedən döyüşlərdə N. İsmayılovun həlak olması əksini tapmışdır.**

İbrahim Yusifoğlu şəhidlərin məkan və zamanından asılı olmayaraq şəhidliyin şərəfli olduğu qədər də, insanlar üçün ağır itki olmasını açıqlaya bilmişdir. Müəllifin Naxçıvan Muxtar Respublikasının şəhid idman müəllimi Asəf Təfəkkül oğlu Fərəcova həsr etdiyi "Ölməli oğul deyildi Asəf" başlıqlı yazısında da şəhidliyin şərəfli olduğu kimi, ağır itki olması məqamına toxunmuşdur: "O gecə Təvəkkül kişinin və Gülsüm ananın oğlanları Məhəmməd və Cəni isə Tərtər torpağında şəhid olmuş qardaşları Asəfin məzarını axtarırdılar. O gecə Asəfin dörd bacısı talenin qarası hopmuş örpəklərini bağlayaraq qardaşlarının toy xonçasını ortaya qoyub analarından gizlin için-için: - "Qardaş, hey ", - deyərək ağlayırdılar..."

Müəllif şəhid olmanı şərəfli olması ilə yanaşı, ağır itki olmasını "Göylərdən ələnən göz yaşlarıydı..." povestində də əks etdirir. İbrahim Yusifoğlu bu ağır dərdi incəliklə təqdim edir: "Milis işçilərindən Məhərrəm Seyidov, Şamil Rəhimov, Vidadi Qafarov, Məmmədsaleh Əliyev, Səfər Məmmədov, Bayram Rzayev və Əli Əliyev kapitan Azər Seyidovun komandanlığı altında döyüşürdülər. Çox qorxmaz uşaqlardılar. Təəssüf ki, Məhərrəm Seyidovu düşmən müharibəsinden xilas edə bilmədik, o, şəhid oldu...

Məhərrəm Seyidov və Oğlanqalalı Mirhəşim Seyidov Şərur şəhərində, İdris Məmmədov və Abbasəli Nəzərəliyev Naxçıvan şəhərində, Etibar Əhmədov Dəmirçi kəndində, Məhəmməd Məhəmmədov Yenikənddə dəfn olunacaqlar. Biz onların qanını yerdə qoymayacağıq!" İbrahim Yusifoğlu bir müəllif kimi "Göylərdən ələnən göz yaşlarıydı..." povestində "Biz onların qanını yerdə qoymayacağıq!", "Şəhidlərin qanı yerdə qalmaz!" kimi fikirlərini səsləndirməklə gələcək nəsillərə səsləyiş edir. Şəhid qanı heç vaxt yerdə qalmır... Zaman axarında bunun şahidinə çevrilirik.

1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə xalqımıza qarşı törədilmiş faciə olan 20 Yanvar faciəsi ədəbiyyatımızda geniş əksini tapmışdır. İbrahim Yusifoğlu yaradıcılığından yan keçməyən "sinəmizə çəkilən sağalmaz yara" hesab etdiyi Qanlı Yanvarın təsviri diqqətdən yayınmır.

"Azadlığa gedən yolun zirvəsi yaxud, 20 yanvar ağrısından, 20 yanvar qeyrətindən doğulan azadlıq" başlıqlı yazısında müəllif Azərbaycan xalqının uzaq olmayan, şahidi olduğu, "milli vüqar, milli qürur günü kimi tariximizə yazılmış" tarixi hadisələrinə münasibət bildirmişdir. İbrahim Yusifoğlu "Azərbaycanın azadlığı 20 Yanvar ağrısından, 20 yanvar qeyrətindən doğuldu" fikrini qələmə almaqla Qara Yanvar faciəsinin xalqın milli dirçəliş yolundakı əhəmiyyət kəsb edən tarixi roluna real qiyməti verməyi bacarmışdır. Müəllif "Mənim inamımı güllələdilər" poemasının I hissəsində Qara Yanvara gələn tarixi yola nəzər xalqın keçdiyi tarixi yolu işıqlandırır. Poemanın "Qara Yanvara gedir" başlıqlı hissəsində müəllif xalqın tarixi keçmişinə nəzər salaraq dövrün problemlərini təqdim etmişdir:

*Vətən, yadellilər yüz illərdi ki,*
*Daraşıb yeyirlə bitirdiyini.*
*Gəlmələr gör necə ərköyündü ki,*
*Dilə gətirmirlər itirdiyini.*

İbrahim Yusifoğlu şəhidliyi bir ənənəyə çevrilməsi amilinə də toxuna bilmişdir. Şəhidliyin ailə içində davam etdirilməsi vətənə xidmət missiyası kimi müəllif tərəfindən göstərilmişdir. Qardaşı Sədi Əsgərovun şəhid olmasından sonra "qardaş yolunun davamçısı" olan Hidayət Əsgərovun şəhidlik ənənəsini davam etdirən bir şəhid obrazı kimi təqdim edə bilir. Hidayət Əsgərovun da qardaşı Sədi Əsgərov kimi Vətən uğrunda döyüşməsi, ağır yaralanaraq şəhid olması məqamı göstərilmişdir: "...canı qədər sevdiyi Sədi qardaşının dünyasına qovuşur!..."

İbrahim Yusifoğlu "Mənim inamımı güllələdilər" poemasında şəhidliyi Tanrıdan gələn ölüm kimi dəyərləndirmişdir:

*Ölümü Tanrıdan gələn qardaşım,*
*Dözmədin günahsız axan qanlara.*
*Canından keçsən də, torpaq vermədin,*
*"Sarı" ilanlara, çaqqal "yan"lara!*

İbrahim Yusifoğlu "Hər ulduzun öz yeri var kəhkəşanlar içində..." yazısında şəhid Kamal Fətulla oğlu Əsədullayevin şəhadətini ürək ağrısı ilə təsvir edir: "...döyüşdə Kamal da rəşadətlə vuruşduqdan sonra sonuncu güllosini özünə vurub ki, düşmənin əlinə sağ keçməsin. Erməni yaraqlıları onun meyidini güllələrlə dəlmə-deşik edərək, hissə-hissə doğramışdılar".

**Müəllif qələmə aldığı əsərlərdə şəhid obrazlarını açıqlayarkən şəhidlərin doğmalarını, konkret olaraq, şəhid atasının, şəhid anasının, şəhid bacısının və başqalarının obrazını təsvir etməklə kədərli ovqatın doğurduğu hisslərə baxmayaraq, onların keçirdikləri hissləri əks etdirməyə qadir olur. İ.Yusifoğlu yaradıcılığında "şəhid atası", "şəhid anası", "şəhid bacısı", "şəhid qardaşı" və s. obrazlarını təq-**



**dim edərkən şəhadətə ucalmış vətən övladarının tam obrazını təsvir edə bilir.**

Müəllif "Mənim inamımı güllələdilər" poemasında şəhid bacısı obrazı ilə şəhid obrazını açıqlamağa, şəhidliyin ali məqam olmasına baxmayaraq, itkinin ağır olması məqamını göstərməyə nail ola bilir. İ.Yusifoğlu şəhid bacılarının qara örpəkli, dilləri ağılı olmasına toxunaraq, ən qəmli ağının da onlar tərəfindən söylənilməsini qələmə alır:

*Dünyada ən qəmli ağılar ki, var,*
*Şəhid bacıları ağlayıbdılar!*

İ.Yusifoğlu "Mənim inamımı güllələdilər" poemasından seçmə nümunələrdən digər bədii və ya publisist əsərlərində istifadə etmişdir. Məsələn, şəhid Əhəd Nəriman oğlu Seyidova həsr etdiyi "Ölümü Tanrı göndərəndə" başlıqlı publisist yazısında "Mənim inamımı güllələdilər" poemasından "Şəhid bacıları" başlıqlı hissəsi montaj edilməsi kimi diqqəti cəlb edir. Müəllif şəhid bacılarının obrazına aydınlıq gətirmək üçün şəhid bacılarına ithaf etdiyi şeiri təqdim etmiş, ictimai kədərlə, müsibətlə yanaşı şəxsi faciəni də əks etdirmişdir:

*Gözləri quruyub susuz çeşmətək,*
*O qədər ki, dərdlə çağlayıbdılar.*
*Dünyada ən qəmli, kədərli, kövrək,*
*Şəhid bacıları ağlayıbdılar!*

İ.Yusifoğlu "Bu həyat kiminlə yola gedib ki..." publisist yazısında şəhid Rövşən Rəhim oğlu Abdullayevin atasının obrazını yaratmaqla, şəhid atasının şəhid övladı üçün keçirdiyi hissləri ümumxalq hisslərə çevirir: "Şəhid gətirilib! ...Bu xəbər ildırım sürəti ilə Şərura yayıldı. Şəhərdəki beşmərtəbəli binanın həyətindən ana fəryadı, bacı naləsi aləmə kədər-qəm yağdırırdı. Binanın tininə söykənib qəhərini siqaret tüstüləri ilə boğan, saçlarına zamanın dənləri ələnən şair qəlbli Rəhim kişi ilk baxışdan sakit görünürdü. Bəlkə də gözünün ağı-qarası olan oğlunun Vətənin torpaqları uğrunda şəhid olması qəlbinə qürur, dodaqlarına şeir misraları gətirmişdi:

*İlham atım yəhərlənib,*
*Şahə qalxır, kəhərlənib,*
*Hərdən-birdən qəhərlənib*
*Qəmdən ocaq catasıyam,*
*Çünki, şəhid atasıyam..."*

İbrahim Yusifoğlu "Mənim inamımı güllələdilər" poemasında şəhidlərin unudulmaması, onların şərəfli əməlləri qarşısında hamının baş əyməsini həkimlərin ümumiləşdirilmiş obrazında da təqdim etməyə nail ola bilmişdir:

*Həkimlər dözürlər qəmə-qüssəyə,*
*Lənət oxuyurlar dava salana.*
*Bircə acizdirlər kömək etməyə,*
*Döyüş meydanında şəhid olana!*
*Dərd ağır olsa da, baş endirirlər,*
*Torpağı uğrunda can verənlərə.*

**İbrahim Yusifoğlu şəhid qanı ilə boyanmış gülləri obraz səviyyəsinə yüksəltməyə nail olur. Güllərin şəhid qanına boyanmasını rəmzi mənada tərənnüm edən müəllif bu məqamı belə əks etdirmişdir:**

*Mənim lalə gülüm, çətirlənibsən,*
*Rənginə rəng verib şəhidlər qanı!*

"Ölməli oğul deyildi Asəf" publisistik yazısında İbrahim Yusifoğlu Asəfin şəhadət məqamını təsvir edərək al lalələr sinəsində əbədiyyətə qovuşmasına toxunmuşdur: "Düşmən mərmiləri ilə doğranmış, yaşıllıqlar içərisində Günəşə sarı boy atmış al lalələr qəhrəman eloğlumuzun şücaətinin, şəhidlik zirvəsinə ucalmasının şahidi oldular. Son anda da lalələr içərisində doğma torpağı qucaqlayıb əbədiyyətə qovuşdu Asəf."

"Yarımçıq qalmış ömürdən sətirlər..." adlı publisistik yazısında isə müəllif şəhidlərin şəhadət olduğu məkanlarında güllərin bitməsinə toxunması rəmzi məna daşıyır. Müəllif gülləri rəmziləşdirməyə, şəhid qanları ilə suvarıldığına diqqəti yönəldə bilir: "Hər il bahar gələndə Fikrətin və polis dostu İmamverdinin şəhid olduqları yerdə qırmızı lalələr, kövrək bənövşələr, nərgizlər bitir. Bu gülləri dərmək, şəhidlərimizin məzarı üstə qoymaq da mümkün deyil. O gülləri mən Fikrətin və İmamverdinin xatirələrinə yazdığım şeir çələngimə hörür, yadigar verirəm:

*Nərgizim, necə də ətirlənibsən,*
*Dərib yaxasına taxamın hanı?*
*Mənim lalə gülüm, çətirlənibsən,*
*Rənginə rəng verir şəhidlər qanı!"*

"Bir kəndin üç şəhid oğlu" başlıqlı yazıda şəhid Saleh Yaqub oğlu Əhmədovun müəllimi olmuş Bahəddin Rəsulovun xatirələri əsasında qələmə alınmış "Karvan" yazısının Məmməd Arazın şeirindən bir bəndin epiqraf kimi təqdim edilməsi əsərə ağırlıq gətirmir, əksinə epiqraf ifadə etmiş olduğu məna baxımından oxucunun diqqətini əsərin ümumi məzmununa yönəldir:

*Sənə verdim bu dünyanı, dümdüzü dünya,*
*Nə dərəsi, nə dağı var gözünü yumsan.*
*Elə bil ki, ana sazli danızdi dünya,*
*Qucağında tək əyləşib, tək uyumusan.*

***(Məmməd Araz)***

İbrahim Yusifoğlunun şəhid Rövşən Rəhim oğlu Abdullayevə həsr etdiyi "Bu həyat kiminlə yola gedib ki..." başlıqlı yazıda təqdim etdiyi epiqraf diqqəti xüsusi cəlb edir. Müəllifin təqdim etdiyi epiqraf şəhid atası Rəhim Abdullayevə aid nəzm nümunəsidir. Müəllif şəhid atasının fərdi dərdi, kədəri yerinə sarsılmazlıq duyğularını əks etdirə bilmişdir:

*Yol otu deyilik, mehə əyilək,*
*Ağlatsa ağlayaq, güldürsə gülək...*
*Bizim də iqbala əsib bu külək,*
*Bu həyat kiminlə yola gedib ki*

**(Rəhim Abdullayev, şəhid atası)**

İbrahim Yusifoğlunun şəhid Sədi Sabir oğlu Əsgərova həsr etdiyi "Şəhidlik zirvədi, zirvədi, Sədi!" başlıqlı yazıda müəllifin özünəməxsus olan hikmətli kəlamların epiqraf kimi təqdim edilməsinin şahidi oluruq: "Cismani ömür şərəfli və şərəfsiz olur, ölüm də beləcə. Şəhidlik - taleyin az-az adama qıydığı dəyərli ölüm zirvəsidir." Müəllif Vətən uğrunda şəhid getməkdən qürur hissi duyduğunu əminliklə bəyan edə bilir.

İbrahim Yusifoğlu qələmə aldığı bədii və publisistik əsərlərində həyat hadisələrini bir-birilə əlaqələndirmə məqsədilə, bəzi hallarda qələmə aldığı bədii və ya publisist əsərlərin əvvəlində bəhs edəcəyi hadisə və əhvalatla oxucusunu yığcam şəkildə tanış etmək məqsədilə proloqdan istifadə etmişdir. Şəhid Nüsrət Hidayət oğlu İsmayılova həsr etmiş olduğu "Şəhidlik zirvəsinə yüksələn igid" başlıqlı publisist yazısında proloq "Ön söz əvəzi" başlığı altında təqdim edilmişdir. Müəllif Şəhid N.İsmayılov haqqında oxucusuna qısa məlumat verməklə, bu yazını qələmə almaqda hansı məqsəd güdməsinə də aydınlıq gətirmiş olur: "...Doğma Bakımızın ən ucalığında yerləşən, nəsillərin and yerinə çevrilən "Şəhidlər xiyabanı"nda ər qeyrətli şəhid bacımız, Azərbaycanın Milli Qəhrəmanı, jurnalist Salatın Əsgərovanın yaxınlığında uyuyan bu igid haqqında yazmaq çox məsuliyyətli bir işdir. Yazdıqlarım şəhid adına layiq olmasa, şəhid ruhları bağışlasın məni. Bu igidlə ilk tanışlığım elə o xiyabanda olmuşdur. İlk dəfə orada mənim eloğlum - şərurlu olduğunu bilib onsuz iftixar hissi keçirmişəm. Və haqqında yazıb igidliyindən bütün aləmə danışmaq istəmişəm".

İbrahim Yusifoğlu şəhidlərlə bağlı fikirlərini bildirərkən tez-tez cəmi dörd misradan, misraları yeddi hecadan ibarət olan bayatılara da müraciət edir. Bayatıların məhz şəhidlərə aid edilməsi müəllif tərəfindən açıqlanır: "Biz heç vaxt kəndimizin, elimizin-obamızın müdafiəçilərini unutmayacağıq. Allah şəhidlərə rəhmət eləsin, qəbirləri nurla dolsun...

*Ay nədən güldü getdi,*
*Gecəni böldü getdi.*
*Düşmən aman vermədi,*
*Cavanlar öldü getdi...*

**Azərbaycanın bütövlüyü və xalqının azadlığı uğrunda canından keçmiş şəhidlərin ömür yolu müqəddəs dəyərlərin məcmusuna, xalqın şanlı tarixinə çevrilir ki, İbrahim Yusifoğlunun vurğuladığı kimi şəhidləri "sabahkı nəslə tanıtmalıyıq". Şəhidlər sayəsində mənəvi rahatlığımı, hüzur və əmin-amanlığını tapmış müasir nəslə, həmçinin gələcək nəslə xalqın taixinə, ümummilli mənəvi dəyərə çevrilmiş şəhidləri tanıtmağı və tanımağı ən bariz vəzifəmizə çevirməliyik. Şəhidliyin dərki və təbliği soykökə, doğma torpaqlara, adət-ənənələrimizə sədaqətimizi, bağlılığımızı, gələcək nəslin öz kökünə bağlı tərbiyə olunmasını inkişaf etdirərək təbliğ edir.**

**Salidə ŞƏRİFOVA,**
**filologiya elmləri doktoru, professor**